***Səbinə İsmayıl qızı HACIYEVA***
***doktorant, Azərbaycan Dövlət Aqrar Universiteti***
**sabina.adau.haciyeva@mail.ru**

# AQRAR SAHƏDƏ KADR HAZIRLIĞINDA DÖVLƏT DƏSTƏYİNİN PRİORİTETLƏRİ

***Xülasə***

Dövlətin aqrar sahədə iqtisadi və sosial siyasəti aqrar təhsil sistemində kadr hazırlığının idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsinə təsir göstərir. Bunun sayəsində son on ildə aqrar təhsil sistemində ixtisaslı kadrların hazırlanması ilə bağlı bir sıra normativ sənədlər qəbul edilmişdir.

İqtisadiyyatın rəqəmsallaşması şəraitində təhsil sisteminin idarə olunması proseslərində dövlətin hərtərəfli dəstəyi zəruridir. Müasir idarəetmə metodlarından istifadə etməklə aqrar sahə üçün ixtisaslı kadrlar hazırlayan təhsil müəssisələrinin tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

***Açar sözlər: kadr hazırlığı, prioritet, dövlət dəstəyi, aqrar sahə, inkişaf.***

***

Cəmiyyətin inkişafının ilkin mərhələsindən bu günə qədər insanların zəruri qida ehtiyacları ilə təmin edilməsi əsas vəzifələrdən biri olmaqda davam edir. Bu səbəbdən də hər bir ölkədə aqrar sahənin inkişafı prioritet məsələlərdəndir. 2050-ci ilə qədər təxmini 9,5 milyarda çatacağı gözlənilən dünya əhalisini ərzaqla təmin etmək üçün ümumi ərzaq istehsalının təxminən 70 – 75 faiz artması lazımdır. Bununla yanaşı, dünyada həyat səviyyəsinin yüksəlməsi tendensiyasına uyğun olaraq ərzaq istehsalı strukturunda sağlam və keyfiyyətli məhsullara tələbat da artmaqdadır.

BMT-nin qəbul etdiyi "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlik" sənədində aclığa son qoyulması, qidalanmanın yaxşılaşdırılması, ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi əsas məqsədlərdən biri kimi müəyyən edilmişdir.

Torpaq və su ehtiyatlarının məhdudlaşdırılması ilə qlobal ərzaq ehtiyatlarının əhəmiyyətli dərəcədə artırılması davamlı kənd təsərrüfatı istehsalına imkan yaradan intensiv metodlardan və yeni texnologiyalardan istifadənin artırılmasını tələb edir. Buna görə də kənd təsərrüfatında müasir texnologiyaların və innovasiyaların geniş tətbiqi hazırda qlobal ərzaq təhlükəsizliyinin gücləndirilməsinin və ətraf mühitə mənfi təsirin azaldılmasının əsas vasitəsidir.

Son 20 ildə aparılan genişmiqyaslı, hərtərəfli işlər sayəsində Azərbaycan bu gün müasir inkişaf mərhələsinə qədəm qoyub. Bu inkişafın əsasında müstəqilliyimizin, təhlükəsizliyimizin, tərəqqimizin, modernləşməmizin, sosial rifahımızın və iqtisadi inkişafımızın təmin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən əsası qoyulmuş siyasi kurs dayanır. Çağırışlara öz dinamik inkişafı ilə cavab verən kənd təsərrüfatı sahəsi də keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul etdiyi qərarlar ölkəmizdə mütərəqqi tənzimləmə və dəstək mexanizmlərinin geniş tətbiqinə real zəmin yaratmışdır.

Aqrar islahatların hazırkı mərhələsində strateji yanaşmanın əsasını iqtisadiyyatın şaxələndirilməsi və modernləşdirilməsi, neftdən asılılığın azaldılması, qlobal bazarlara daha sıx inteqrasiya, məhsuldarlığın artırılması və fermerlərin maddi rifahının yüksəldilməsi hesabına istehsal xərclərinin azaldılması dayanır. Son illər ölkəmizdə aparılan sistemli islahatlar və yüksək dövlət dəstəyi sayəsində kənd təsərrüfatı məhsullarının istehsalının göstəriciləri artan tendensiya göstərir.

Dünyanın inkişaf etmiş ölkələrində bu məqsədlə təhsil, innovasiya və təcrübənin istehsalatla inteqrasiyası üçün sənaye sahələrində kadrlara olan tələbatın ödənilməsi məqsədilə təhsil sisteminə innovativ texnologiyaların tətbiqi və kadr potensialına xüsusi diqqət yetirilməsi geniş şəkildə istifadə olunur [5, s. 6-7]. Aqrar təhsil sisteminə innovativ texnologiyaların tətbiqi, sahədə müasir idarəetmə üsullarının tətbiqi, elm və istehsalın inteqrasiyası, kadr potensialının artırılması, əmək bazarının rəqabətədavamlı kadrlarla təmin olunma səviyyəsi, təhsilin səmərəliliyinin artırılması respublikamızın aqrar təhsil sisteminin inkişaf etdirilməsini və mövcud ali və peşə təhsili müəssisələrində dəyişən əmək bazarının tələblərinə cavab verən yüksək ixtisaslı kadrların hazırlanmasını tələb edir.

Dövlətin həyata keçirdiyi iqtisadi və sosial islahatlar əsasında təhsil sisteminin statusunun və nüfuzunun daha da artırılması, təhsilin keyfiyyətinin və tədris prosesinin səmərəliliyinin təmin edilməsi, sağlam rəqabət mühitinin yaradılması istiqamətində hüquqi sənədlər təkmilləşdirilmişdir. Azərbaycan Respublikası vətəndaşlarının əmək hüquqlarının müdafiəsi, əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi, əmək qanunvericiliyinin təkmilləşdirilməsi, işçilərin maddi, sosial, mənəvi və digər həyati tələbatlarının ödənilməsi ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas prioritet istiqamətləridir.

Azərbaycanda aqrar sahənin modernləşdirilməsi bir sıra xüsusiyyətlərə malikdir:

1. Modernləşmə ixtisaslı işçi qüvvəsinə daha yüksək tələbat yaradır;
2. Modernləşmə aqrar istehsalın rəqabət qabiliyyətini artırır;
3. Modernləşmə aqrar sahədə yeni təşkilati və idarəetmə mexanizminin yaradılmasına kömək edir;
4. Modernləşmə Azərbaycanda elmin müəyyən sahələrinə praktiki ehtiyac yaradır və elmin kommersiyalaşmasına şərait yaradır;
5. Modernləşmə ali təhsil sahəsində mütəxəssislərin hazırlanmasına zəmin yaradır, təhsil və

işgüzar münasibətlərin kompleks xarakterini stimullaşdırır;

6. Modernləşmə zəncirvari şəkildə aqrar sahədə xidmət edəcək iqtisadi sahələrin inkişafını təmin edir;

7. Modernləşmə aqrar sahənin ixrac potensialını genişləndirir;

8. Modernləşmə aqrar sahədə işçi qüvvəsinə tələbatı azaldır və urbanizasiyaya şərait yaradır [3, s.1].

Aqrar sahədə innovasiyanın əsas xüsusiyyəti istehsal prosesinin spesifik xüsusiyyətləri ilə sıx bağlıdır. Aqrar sahədə innovasiyanı bir neçə istiqamətə bölmək olar. Onlardan əsas ikisi iqtisadi innovasiyalar və istehsal-texnoloji innovasiyalardır.

Aqrar sahənin modernləşdirilməsinin sürətləndirilməsində mühüm rol oynayan innovativ fəaliyyətin inkişafı zəruri elmi tədqiqatlar vasitəsilə həyata keçirilməlidir. Qloballaşma prosesinin genişlənməsi sahibkarlığın formalaşmasında və inkişafında elmi-texniki inqilabın nailiyyətlərinə əlverişli şərait yaratmaqda davam edir [1, s.25-30].

Aqrar sahədə davamlı inkişafın təmin edilməsi üçün müəyyən edilmiş elmi yanaşmalara əsaslanan islahatlar fermerlərin və aqrar sahə işçilərinin mənafeyinə xidmət edən strategiyaya əsaslanır. Bunu nəzərə alan Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətində 3 əsas prinsipi - kəndli və fermerə yaxınlıq, səmərəli idarəetmə və innovasiyalardan istifadəni rəhbər tutur.

Nazirlik fundamental prinsiplərə əsaslanaraq, funksional fəaliyyətini müasir tələblərə uyğun təşkil etmək üçün beş strateji istiqaməti əsas götürüb.

1. Aqrar təhlil. Aqrar sahədə təhlil, qiymətləndirmə və proqnozlaşdırmanın aparılması, proqram və layihələrin hazırlanması, sənayenin strateji planlaşdırılması və onun innovativ inkişafı üzrə öhdəliklərin yerinə yetirilməsini təmin etmək məqsədilə dövlət hüquqi şəxs statuslu Aqrar Tədqiqatlar Mərkəzi yaradılıb.

2. Aqrar həllər. Hazırda kənd təsərrüfatı sahəsində əsas vəzifə məhsuldarlığı artırmaqla rəqabətqabiliyyətliliyi və ərzaq təhlükəsizliyini təmin etməkdir. Bu isə innovativ istehsal və idarəetmə texnologiyalarının, müasir metod və həll yollarının bütün sahələrində geniş tətbiqini tələb edir.

Aqrar yönümlü elmi müəssisələrin təminatının gücləndirilməsi, innovasiyaların fermerlərə çatdırılması və bu strukturların məsləhət xidmətləri şəbəkəsinə çevrilməsi istiqamətində institusional islahatlar apararaq Aqrar Elm və İnnovasiyalar Mərkəzi yaradılıb. Hazırda kənd təsərrüfatı elminin müasirləşdirilməsi istiqamətində islahatlar davam etdirilir.

3. Aqrar bilik və bacarıqları. "Biliklər əsri" adlandırılan müasir dövrdə aqrar sahənin davamlı inkişafı ilk növbədə elmin və təhsilin müasir tələblərə uyğun təşkili ilə bağlıdır. Müasirləşmiş elmi tədqiqatlar, o cümlədən aqrar sahədə təhsil və kadr hazırlığı üzrə məsləhət xidmətləri sisteminin formalaşdırılması istiqamətində fəaliyyətin sistemli şəkildə həyata keçirilməsi məqsədilə "Aqrar elm və təhsilin inkişafı üzrə Dövlət Proqramı" hazırlanıb və ictimaiyyətə təqdim edilib.

4. Aqrar sahəyə dəstək. Məhsul istehsalçılarını stimullaşdırmaq, onların istehsal xərclərini azaltmaq və mənfəət əldə etmək imkanlarını artırmaq üçün dövlət tərəfindən böyük dəstək tədbirləri həyata keçirilir.

5. Kənd təsərrüfatı ticarəti. Hazırda kənd təsərrüfatı sahəsində iqtisadi fəallıq və bu sahəyə maraq artmaqdadır [7, s.2].

Aqrar sahənin inkişafının əsas göstəricilərindən biri də məhz insan resurslarıdır. Buna görə Dövlət Proqramlarında kadrların hazırlıq prosesinə xüsusi diqqət ayrılmışdır. Əməyə tələbin stimullaşdırılması və insan kapitalının inkişafı sahəsində Dövlət Proqramının məqsədləri aşağıdakılardır:

- əmək bazarının tələblərinin nəzərə alınması, rəqabətqabiliyyətli ixtisaslar üzrə kadrların hazırlanması istiqamətində peşə təhsili sisteminin təkmilləşdirilməsi;
- iş yerlərində təhsilin davam etdirilməsi, fasiləsiz peşə təhsili sisteminin daha da təkmilləşdirilməsi, təlimin innovativ formalarının (distant təhsil, modul təlim və s.) tətbiqi;
- ibtidai ixtisas təhsili almaq üçün müasir tələblərə cavab verən təhsil proqramlarının hazırlanması;
- insan amilinin inkişafına yönəlmiş investisiyaların cəlb edilməsi imkanlarının müəyyən edilməsi;

- beynəlxalq məşğulluq təsnifatı əsasında təkmilləşdirilmiş peşə təsnifatının, peşə hazırlığı və təhsil standartlarının işlənib hazırlanması [2, s.112-126].

Qeyd edilənlər baxımından iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sektorda əldə olunan uğurları və yüksək nəticələri ölkənin dinamik inkişafının göstəriciləri kimi qiymətləndirmək olar.

**ƏDƏBİYYAT**

1. Mirzəyev Q. (Oktyabr 2020). "Kənd təsərrüfatı müəssisəsində əmək məhsuldarlığının təhlili" Kənd təsərrüfatı iqtisadiyyatı, №4 (34), 206.
2. Aqrar sahənin innovativ inkişaf amillərinin təhlili. "Maliyyə və uçot" jurnalı. 2016, səh.35.
3. www.president.az
4. www.migration.gov.az
5. www.stat.gov.az
6. www.agro.gov.az/aem
7. www. azertag.az

***Сабина Исмаиловна Гаджиева***
***докторант, Азербайджанский***
***Государственный Аграрный Университет***

**Приоритеты государственной поддержки подготовки кадров в аграрной области**

***Резюме***

Экономическая и социальная политика государства в аграрной сфере влияет на совершенствование механизмов управления подготовки кадров в системе аграрного образования. Благодаря этому за последние десять лет принят ряд нормативных документов по подготовке квалифицированных кадров в системе аграрного образования.

В условиях цифровизации экономики необходима всесторонняя поддержка государства в процессах управления системой образования. Особое значение имеет внедрение образовательных учреждений, готовящих квалифицированные кадры для агропромышленного комплекса с использованием современных методов управления.

***Ключевые слова: подготовка кадров, приоритет, государственная поддержка, аграрный сектор, развитие.***

***Sabina Ismayil Hajiyeva***
***PhD student, Azerbaijan State Agrarian University***

**Priorities of state support of staff training in the agricultural sphere**

***Summary***

The economic and social policy of the state in the agricultural sector influences the improvement of management mechanisms for personnel training in the agricultural education system. Thanks to this, over the past ten years, a number of regulatory documents have been adopted on the training of qualified personnel in the agricultural education system.

In the context of digitalization of the economy, comprehensive support from the state is required in the processes of managing the education system. Of particular importance is the introduction of educational institutions that train qualified personnel for the agro-industrial complex using modern management methods.

***Key words: personnel training, priority, state support, agricultural sphere, development.***